## Mərhəmətli, Rəhmli Allahın adı ilə!

Həqiqətən şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə o, doğru yolda olar, kimi azdırarsa onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

«Ey iman gətirənlər! Allahdan layiqincə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!»[1]

«Ey insanlar! Sizi tək bir şəxsdən xəlq edən, ondan da zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın *törədib yer üzünə* yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən *cürbəcür şeylər* istədiyiniz Allahdan qorxun və qohumluq əlaqələrini kəsməkdən *çəkinin*! Həqiqətən, Allah sizə nəzarət edəndir!»[2]

«Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin! *Əgər belə etsəniz* Allah əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Onun elçisinə itaət etsə, böyük bir səadətə nail olar».[3]

---

[1] «Ali İmran» surəsi, 102.
[2] «ən-Nisa» surəsi, 1.
[3] «əl-Əhzab» surəsi, 70-71.

Müsəlman qardaş və bacılarım! İslam tarixinə nəzər salsaq görərik ki, neçə-neçə Allah bəndəsi İslamı yaşamış və müsəlman olaraq həyatdan köçmüşdür. Onlar hal hazırda aramızda olmasalar da gözəl əməlləri sayəsində adları bu günədək imanlı insanlar kimi xatırlanmış və gələcək nəsillərə tanıdılmışdır. Bu xoşbəxt insanların bir çoxu hələ sağ ikən Peyğəmbərimiz ﷺ tərəfindən Cənnətlə müjdələnmiş və bununla da digər möminlərin sevgisini qazanmışlar. Belə insanları tanımaq və cəmiyyətdə tanıtmaq gələcək nəslin nümunəvi tərbiyəsi üçün çox faydalı olduğunu nəzərə alıb Peyğəmbərimizin ﷺ Cənnətlə müjdələdiyi səhabələr haqqında olan rəvayətlərdən bəzilərini bu risalədə diqqətinizə çatdırıram.

Uca Allahdan diləyirəm ki, bizləri də o insanlarla bərabər Cənnətə daxil etsin!

*Tərcüməçidən*

# Cənnətlə müjdələnənlər

- Peyğəmbər ﷺ demişdir: “Qardaşlarınız Uhud döyüşündə şəhid olduqda, qüdrət və qüvvət sahibi olan Allah onların ruhlarını yaşıl quşların daxilinə yerləşdirdi. Onların ruhları Cənnət çaylarının yanına gəlir, Cənnət meyvələrindən yeyir və Ərşin kölgəsində yerləşdirilmiş çıraqların yanına qayıdırlar. Yemək-içməklərinin və qayıtdıqları yerin nə qədər gözəl olduğunu gördükləri zaman deyirlər: “Kaş qardaşlarımız Allahın bizə verdiyi nemətlər barəsində biləydilər və Allah yolunda olan cihaddan imtina edərək dönüb qaçmayaydılar”. Qüdrət və qüvvət sahibi olan Allah: “Mən sizin dediklərinizi onlara çatdıraram!” - deyib bu ayələri Öz Elçisinə nazil etdi:

«Allah yolunda öldürülənləri əsla ölü sanma! Əksinə, *onlar* diridirlər, öz Rəbbi yanında onlara ruzi verilir. Onlar Allahın Öz lütfündən onlara bəxş etdiyi şeylərə sevinərək, arxalarınca gəlib hələ özlərinə çatmamış kəsləri, onlara *axirətdə* heç bir qorxu olmayacağı və *olub-keçənlərə görə* qəm-qüssə görməyəcəkləri ilə müjdələyirlər. Onlar Allahın nemətinə, lütfünə, həm də Allahın möminlərin mükafatını puç etməyəcəyinə sevinirlər». (Ali-İmran, 169-171)[1]

- Peyğəmbər ﷺ demişdir: “Əbu Bəkr cənnətlikdir; Ömər cənnətlikdir; Osman cənnətlikdir; Əli cənnət-

[1] Əhməd, 1/265; Əbu Davud, 2/322; əl-Hakim, 2/88; İbn Hişam, 2/119; İbn Cərir, 4/170; İbnul-Mübarək, 5/656.

likdir; Talhə cənnətlikdir; Zubeyr cənnətlikdir; Abdurrəhman ibn Auf cənnətlikdir; Sə'd ibn Əbi Vəqqas cənnətlikdir; Səid ibn Zeyd cənnətlikdir; Əbu Ubeydə ibnul-Cərrah cənnətlikdir”.[1]

- Peyğəmbər ﷺ demişdir: “Əbu Bəkr və Ömər əvvəlki və sonrakı Cənnət əhlinin yaşlıları arasında ən hörmətli olacaqlar. Yalnız peyğəmbərlər və elçilər istisnadır”.[2]

- Peyğəmbər ﷺ üzünü əshabələrə tutub dedi: “Hansı biriniz bu gün oruc tutub?” Əbu Bəkr (r.a): “Mən!” - deyə cavab verdi. Peyğəmbər ﷺ yenə soruşdu: “Hansı biriniz bu gün cənazənin ardınca gedib?” Əbu Bəkr (r.a): “Mən!” - deyə cavab verdi. Peyğəmbər ﷺ yenə soruşdu: “Hansı biriniz bu gün bir kasıb yedizdirib?” Əbu Bəkr (r.a): “Mən!”- deyə cavab verdi. Peyğəmbər ﷺ bir daha soruşdu: “Hansı biriniz bu gün xəstəni ziyarət edib?” Əbu Bəkr (r.a): “Mən!”- deyə cavab verdi. Peyğəmbər ﷺ dedi: “*Gün ərzində* bu dörd gözəl xisləti özündə cəm etmiş kimsə Cənnətə daxil olar”.[3]

- Peyğəmbər ﷺ demişdir: “Hər kəs Allah üçün yaxşı iş görsə, Cənnət qapılarına dəvət olunar; namaz qılanlar namaz qapısından, cihad edənlər cihad qapısından, sədəqə verənlər sədəqə qapısından, oruc tutanlar

[1] ət-Tirmizi, 5/647-648; “Səhihul-Cami”, 50.
[2] ət-Tirmizi, 5/610; İbn Macə, 1/36; “Silsilətul-Əhadisis-Səhihə”, 12/487.
[3] Muslim, 15/151.

Rəyyan adlı oruc qapısından Cənnətə dəvət olunarlar”. Bunu eşidən Əbu Bəkr (r.a) dedi: “Ey Allahın Elçisi! O qapıların hamısından dəvət olunan olacaqmı?” Rəsulullah ﷺ demişdir: dedi: “Bəli *olacaq*! Ey Əbu Bəkr. Mən istəyirəm ki, sən onlardan olasan”.[1]

- Peyğəmbər ﷺ dedi: “Cənnətə daxil oldum və orada bir ev yaxud bir qəsr gördüm. Mən: “Bu kimindir?” - deyə soruşdum. Dedilər: “Ömər ibnul-Xəttabındır!” Mən içəri daxil olmaq istədikdə sənin qısqanclığın yadıma düşdü”. Ömər dedi: “Ey Allahın Elçisi! Heç sənə də qısqanmaq olar?”.[2]

- Peyğəmbər ﷺ: “Kim Rumə quyusuna alsa, onun üçün Cənnət vardır!” - dedi və Osman (r.a) bu quyunu aldı; “Kim Usra ordusunu təchiz etsə, onun üçün Cənnət vardır!” - dedi və Osman (r.a) bu ordunu təchiz etdi”.[3]

- Əbu Musa Əşari (r.a) rəvayət edir ki, “Bir dəfə Əbu Bəkr (r.a) Peyğəmbərin ﷺ yanına daxil olmaq üçün izn istədi. Mən bunu Peyğəmbərə ﷺ bildirdikdə o dedi: “İzn ver gəlsin və onu Cənnətlə müjdələ”. Sonra Ömər ibn Xattab (r.a) Peyğəmbərin ﷺ yanına daxil olmaq üçün izn istədi. Mən bunu Peyğəmbərə ﷺ bildirdikdə o dedi: “İzn ver gəlsin və onu Cənnətlə müjdələ”. Sonra da Osman ibn Affan (r.a)

[1] əl-Buxari, 7/23.
[2] əl-Buxari, 3/1185; Muslim, 4/1862.
[3] əl-Buxari, 3/1021.

Peyğəmbərin ﷺ yanına daxil olmaq üçün izn istədi. Mən bunu Peyğəmbərə ﷺ bildirdikdə o dedi: "İzn ver gəlsin və onu Cənnətlə müjdələ".[1]

- Bir dəfə Peyğəmbər ﷺ , Əbu Bəkr (r.a), Ömər ibn Xattab (r.a) və Osman ibn Affan (r.a) Uhud dağına qalxdılar. Bu vaxt dağ silkələndi. Peyğəmbər ﷺ ona dedi: "Ey Uhud! Sakit ol! Sənin üzərində peyğəmbər, siddiq və iki şəhid var".[2]

- Peyğəmbər ﷺ demişdir: "Cənnət üç nəfər üçün darıxır: "Əli *ibn Əbi Talib*, Ammar *ibn Yasir* və Salman *əl-Farisi*".[3]

- Peyğəmbər ﷺ demişdir: "Həsən və Hüseyn Cənnətdəki cavanlar arasında ən hörmətli olacaqlar. Ataları isə onlardan da xeyirlidir".[4]

- Peyğəmbər ﷺ demişdir: "Həsən və Hüseyn Cənnətdəki cavanlar arasında ən hörmətli olacaqlar. Fatimə də qadınlar arasında ən xeyirli olacaq".[5]

- Peyğəmbər ﷺ dedi: "Dünən axşam Cənnətə daxil oldum. Baxdım ki, Cəfər mələklərlə birgə uçur, Həmzə isə çarpayının üstündə dirsəklənib".[6]

- Peyğəmbər ﷺ dedi: "Cəfər ibn Əbi Talibin iki qanadla mələk kimi Cənnətdə uçduğunu gördüm".[7]

---

[1] əl-Buxari, 7/25.
[2] əl-Buxari, 7/66.
[3] Müstədrək, 3/148; "Səhihul-Cami", 1/331.
[4] əl-Hakim, 3/167; "Silsilətul-Əhadisis-Səhihə", 796; "Səhihul-Cami", 47.
[5] əl-Hakim, 3/167; "Silsilətul-Əhadisis-Səhihə", 796; "Səhihul-Cami", 47.
[6] Təbərani, 2/107; əl-Hakim, 3/217; "Səhihul-Cami", 3363.
[7] Tirmizi, 2/305; "Silsilətul-Əhadisis-Səhihə", 1226.

- Peyğəmbər ﷺ demişdir: “Cənnət qadınlarının ən fəzilətlisi; Xuveylidin qızı Xədicə, Muhəmmədin qızı Fatimə, İmranın qızı Məryəm və Fironun zövcəsi Muzahimin qızı Asiyadır”.[1]

- Cəbrail (a.s) Peyğəmbərin ﷺ yanına gəlib dedi: Ey Allahın Elçisi! İndi Xədicə əlində də bir qab xörək şirəsi yaxud yemək yaxud da içki içəri daxil olacaq. Sənin yanına gəldikdə ona Rəbbindən və məndən salam söylə! Onu Cənnətdə *onun üçün* quru mirvaridən *hazırlanmış*, içində də heç bir səs-küy və yorğunluq olmayan ev ilə müjdələ!” [2]

- Peyğəmbər ﷺ demişdir: “Zövcəm Aişə cənnətlikdir”.[3]

- Peyğəmbər ﷺ Aişəyə (r.a) dedi: “Həm dünyada, həm də Axirətdə mənim zövcəm olmağa razısanmı?” Aişə (r.a): “Əlbəttə *razıyam*!”- deyə cavab verdi. Peyğəmbər ﷺ dedi: “Dünyada da, Axirətdə də sən mənim zövcəmsən!”[4]

- Peyğəmbər ﷺ demişdir: “Abdullah ibn Səlam Cənnətdə on nəfərin onuncusudur”.[5]

- Peyğəmbər ﷺ dedi: “Cənnətə daxil oldum, cavan bir qızla rastlaşdım. Mən: “Sən kimə məxsussan?” - dedim. O da: “Zeyd ibn Harisəyə” deyə cavab verdi”.[6]

---

[1] Əhməd, 1/322; “Silsilətul-Əhadisis-Səhihə”, 4/13.
[2] əl-Buxari, 3/1389; Muslim, 4/1887.
[3] İbn Sə'd, 8/66; “Səhihul-Cami”, 3965.
[4] əl-Hakim, 4/10; “Silsilətul-Əhadisis-Səhihə”, 1142.
[5] Əhməd, 5/242; əl-Hakim, 1/178; “Səhihul-Cami”, 3975.
[6] İbn Əsakir, 6/399; “Silsilətul-Əhadisis-Səhihə”, 1859.

- Peyğəmbər ﷺ dedi: “Cənnətə daxil oldum və orada iki dərəcənin Zeyd ibn Amr ibn Nufeylə məxsus olduğunu gördüm”.[1]
- Peyğəmbər ﷺ dedi: “Cənnətə daxil oldum, orada qiraət eşitdim. Dedim: “Bu kimdir?” Dedilər ki: “Harisə ibn Nu'mandır. Habelə sizlərdən xeyirxah əməl sahibləri də”.[2]
- Peyğəmbər ﷺ dedi: “Cənnətə daxil oldum və qarşımda ayaq səsləri eşitdim. Mən: “Bu kimin ayaq səsidir?” - dedim. *Mənə*: “Bu Bilaldır, qarşından keçir” - deyildi”.[3]
- Peyğəmbər ﷺ dedi: “Cənnətə daxil oldum və qarşımda ayaq səsləri eşitdim. Mən: “Bu kimin ayaq səsidir?” - dedim. *Mənə*: “Bu Ğumeysa bint Milhandır” - deyildi”.[4]
- Peyğəmbər ﷺ demişdir: “Cənnətdə Əbu-Dəhdah üçün sallanmış çoxlu xurma salxımları vardır!” [5]
- Peyğəmbər ﷺ demişdir: “Vərəqə ibn Nofəli söyməyin! Çünki mən onun bir və ya iki Cənnəti olduğunu gördüm”.[6]
- Uca Allahın: «Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən yüksəyə qaldırmayın və bir-birinizi çağırdığınız kimi onu da uca səslə çağırmayın. Yoxsa,

---

[1] İbn Əsakir, 6/337; “Silsilətul-Əhadisis-Səhihə”, 1406.
[2] əl-Hakim, 3/208; “Silsilətul-Əhadisis-Səhihə”, 913; “Səhihul-Cami”, 3371.
[3] əl-Buxari, 2/425; “Silsilətul-Əhadisis-Səhihə”, 1405.
[4] Əhməd, 3/125; “Səhihul-Cami”, 3368.
[5] Muslim, 2/665.
[6] əl-Hakim, 2/609; “Silsilətul-Əhadisis-Səhihə”, 405; “Səhihul-Cami”, 7320.

özünüz də hiss etmədən əməlləriniz puç olar».[1] ayəsi nazil olduqdan sonra "Peyğəmbər ﷺ bir neçə gün Sabit ibn Qeysi (r.a) görmədi. Onu soruşduqda əshabələrdən biri dedi: "Ya Rəsulallah! Mən onun barəsində sənə bir xəbər gətirərəm". Əshabə gəlib onu evdə boynunu bükmüş halda gördü və: "Sənə nə olub?"- deyə soruşdu. Sabit bəlaya düşdüyünü, səsini Peyğəmbərin ﷺ səsindən ucaya qaldırdığını, beləliklə də əməllərinin boşa çıxdığını, özünün də Cəhənnəm əhlindən olduğunu söylədi. Əshabə gəlib onun dediklərini Peyğəmbərə ﷺ söylədi. Peyğəmbər ﷺ də əshabəyə, qayıdıb onu müjdələməyi əmr etdi və dedi: "Get ona de ki: "Sən Cəhənnəm əhlindən deyil, Cənnət əhlindənsən!"[2]

- Peyğəmbər ﷺ dedi: "Ümmətlər mənə göstərildi. Mən bir Peyğəmbər gördüm, yanında bir dəstə adam var idi. Başqa birisini də gördüm, yanında bir-iki nəfər var idi. Hətta eləsini də gördüm ki, yanında heç bir kəs yox idi. Bu vaxt mənə böyük bir toplum göstərildi və mən elə zənn etdim ki, bu mənim ümmətimdir. Mənə: "Bu, Musa və onun qövmüdür. Sən üfüqə tərəf bax!"- deyildi. Mən üfüqə tərəf baxdıqda daha böyük toplum gördüm. Mənə: "Bu, sənin ümmətindir. Onlardan yetmiş min nəfəri sorğu-sualsız, əziyyət çəkmədən Cənnətə daxil olacaqlar!" - deyildi.

[1] «əl-Hucurat», 2.
[2] əl-Buxari, 3/1322; Muslim, 1/110.

- O, bunu deyəndən sonra evinə girdi. Camaat sorğu-sualsız, əziyyət çəkmədən Cənnətə girənlərin kimlər olacağı barədə mübahisə etməyə başladı. Hərə bir fikir söylədi. Bu vaxt Peyğəmbər ﷺ bayıra çıxıb dedi: “Nəyə görə mübahisə edirsiniz? Onlar özlərinə ovsun oxunmasını tələb etməyən, *hər hansı bir hadisəni* uğursuzluq əlaməti hesab etməyən, *müalicə məqsədilə* bədənə dağ basmayan və yalnız özlərinin Rəbbinə təvəkkül edən kimsələrdir”. Bu vaxt Ukkaşə ibn Mihsan (r.a) ayağa qalxıb dedi: “Allaha dua et ki, məni onlardan etsin!” Peyğəmbər ﷺ dedi: “Sən onlardansan!”....[1]

- Bir bədəvi Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Ey Allahın Elçisi! Mənə elə bir əməl öyrət ki, onu yerinə yetirdikdə Cənnətə düşüm”. O dedi: “Allaha ibadət et, Ona heç bir şeyi şərik qoşma, vacib namazları qıl, fərz olan zəkatı ver və Ramazan ayını oruc tut!” Bədəvi dedi: “Canım Əlində olana and olsun ki, mən bunlara heç nəyi əlavə etməyəcəyəm və bunlardan heç nə əskiltməyəcəyəm!” Bədəvi çıxıb getdikdən sonra Peyğəmbər ﷺ dedi: “Kim Cənnət əhlindən olan adamı görmək istəyirsə, qoy ona baxsın”.[2]

- Peyğəmbər ﷺ demişdir: “Ümmətimdən Cənnətə daxil olan ilk zümrə kasıb mühacirlər olacaq. Onlar Qiyamət günü Cənnətin qapısına yaxınlaşacaq və qapının açılmasını xahiş edəcəklər. Cənnət gözətçiləri de-

---

[1] əl-Buxari, 5/2157; Muslim, 1/199.
[2] əl-Buxari, 2/506; Muslim, 1/44.

yəcəklər: “Məgər siz haqq-hesab olundunuzmu?” Onlar deyəcəklər: “Nəyimiz var idi ki, haqq-hesab olunaq. Axı biz ölənə qədər ancaq qılınclarımız çiyinlərimizdə Allah yolunda vuruşmuşuq”. Sonra qapılar onlar üçün açılacaq və başqa insanlar Cənnətə daxil olana qədər onlar orada qırx il qalacaqlar”.[1]

- Bir qadın Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Ey Allahın Elçisi! Yuxuda gördüm ki, Cənnətə düşmüşəm. Orada bir səs eşitdim ki, o səsdən Cənnət titrədi. Filankəsin oğlu filankəs, filankəsin oğlu filankəs deyilərək on iki kişinin adları sadalandı. Sonra onlar əyinlərindəki köhnə paltarda, boyun damarlarından da qan axa-axa gətirildi və deyildi: “Aparın onları əl-Beydəc yaxud əl-Beydəh çayına!” Onları gətirib bu çaya saldılar. Onlar çaydan çıxanda üzləri bədirlənmiş *on dörd gecəlik* ay kimi gözəl idi. Sonra qızıldan olan kürsülər gətirildi və onlar bu kürsülərin üstündə əyləşdilər. Habelə boşqabda yemək də gətirildi və onlar bu yeməkdən yedilər. Üstəlik hansı böyrü üstə çevrilirdilərsə o tərəfdə də istədikləri meyvələrdən yeyirdilər”

Elə bu vaxt Peyğəmbərin ﷺ göndərdiyi qoşundan bir müjdəçi gəlib dedi: “Başımıza belə-belə işlər gəldi. Filankəs, filankəs .... şəhid oldu”. O, qadının dediyi adları bir-bir sadaladı. Peyğəmbər ﷺ dedi: “O qadını yanıma gətirin!” Qadın onun yanına gəldikdə

[1] əl-Hakim, 2/80; “Silsilətul-Əhadisis-Səhihə”, 853; “Səhihul-Cami”, 96.

dedi: “Yuxunu buna danış!” Qadın gördüyü yuxunu danışdıqda müjdəci: “Bəli, o dediyi kimidir”- dedi.[1]

- Peyğəmbərdən ﷺ soruşdular: “Ey Allahın Elçisi! Filan qadın vacib namazları yerinə yetirir, malından sədəqə verir və heç kəsə əziyyət vermir”. Peyğəmbər ﷺ dedi: “O, Cənnət əhlindəndir!” [2]

- Ənsarlardan bir kişi (Mədinədəki) Quba məscidində imamlıq edirdi. O hər dəfə namazda hər hansı bir surəni oxumaq istədikdən əvvəl “əl-İxlas” surəsini oxuyar, sonra isə istədiyi surəni oxuyardı. O hər rəkətdə belə edərdi. Əshabələr ona dedilər: “Sən əvvəlcə bu surəni oxuyursan və elə hesab edirsən ki, bu kifayət etmir, ona görə də başqa bir surə oxuyursan?! Ya bu surəni oxu, ya da başqasını.” O dedi: “Mən bunu tərk etməyəcəm. Əgər bu şəkildə namazlarınıza imamlıq etməyimi istəyirsinizsə, belə edəcəyəm. Yox əgər istəmirsinizsə, sizi tərk edəcəyəm”. Onlar onu aralarında ən yaxşılardan hesab edir və özlərinə başqasının imamlıq etməsini istəmirdilər. Peyğəmbər ﷺ onların yanına gəldikdə bu haqda ona xəbər verdilər. O dedi: “Ey filankəs! Yoldaşlarının dediyi kimi etməyə sənə nə mane olur? Hər rəkətdə bu surəni oxumağa səni vadar edən nədir?” O dedi: “Mən onu sevirəm.” Peyğəmbər ﷺ ona dedi: “Ona olan sevgin səni Cənnətə daxil etdi”.[3]

---

[1] Əhməd, 3/257.
[2] “əl-Ədəbul-Mufrad”, 119.
[3] əl-Buxari, 774.

- Peyğəmbər ﷺ dedi: “Cənnətə daxil oldum və orada Əbu Talhənin həyat yoldaşı Rumeysanı gördüm. Həmçinin ayaq səsləri eşitdim və: “Bu kimin ayaq səsləridir?” - dedim. Dedilər: “Bu Bilaldır!” Habelə bir qəsr, onun yanında da cavan bir qız gördüm. Mən: “Bu kimindir?” - deyə soruşdum. Dedilər: “Ömərindir!” Mən içəri daxil olmaq istədikdə qısqanclığın yadıma düşdü”. Ömər dedi: “Atam-anam sənə fəda olsun, ey Allahın Elçisi! Heç sənə də qısqana bilərəmmi?”.[1]

- Bəra ibn Azib (r.a) deyir ki, mən Peyğəmbərə ﷺ ipək paltar hədiyyə etdim. Əshabələr əllərini paltara sürtüb onun yumşaqlığına təəccübləndilər. O dedi: “Bunun yumşaqlığınamı təəccüblənirsiniz? Halbuki Sə'd ibn Muazın Cənnətdəki dəsmalları bundan daha xeyirli və daha yumşaqdır”.[2]

- Ənəs (r.a) rəvayət edir ki, biz Peyğəmbər ﷺ ilə birgə oturmuşduq. O dedi: “İndi buraya Cənnət əhlindən olan bir kişi gələcək”. Bu vaxt ənsardan biri içəri daxil oldu. Onun saqqalından dəstəmazın suyu damırdı, sol əlində də ayaqqabılarını tutmuşdu. Ertəsi gün Peyğəmbər ﷺ bir daha o sözləri dedi və yenə də həmin kişi içəri daxil oldu. Səhəri gün Peyğəmbər ﷺ bir daha o sözləri dedi və yenə də həmin kişi içəri daxil oldu. Peyğəmbər ﷺ çıxıb getdikdən sonra,

---

[1] əl-Buxari, 3/1346.
[2] əl-Buxari, 2/922; Muslim, 4/1916.

Abdullah ibn Amr ibnul-As (r.a) həmin kişinin ardınca gedib ona çatdı və dedi: “Atamla aramızda inciklik olub və and içmişəm ki, üç gün onun yanına getməyəcəyəm. Əgər izn versəydin, vaxt tamam oluncaya qədər sənin yanında qalardım”. Kişi: “Buyur!” - deyə razılığını bildirdi.

Abdullah ibn Amr ibnul-As (r.a) deyir ki, üç gecə onun evində qaldım və qeyri-adi bir şey görmədim. Ancaq onu gördüm ki, Sübh namazınadək yuxudan oyandıqca və ya yatağında oyana bu yana çevrildikcə Allahı yad edir və Onu uca tuturdu. Beləliklə üç gün keçdi və onun etdikləri məni qane etmədi. Mən dedim: “Ey Allahın qulu! Atamla aramızda heç bir söz-söhbət, inciklik olmamışdı. Mən sadəcə Peyğəmbərin ﷺ sənin barəndə üç dəfə: “İndi bura Cənnət əhlindən olan bir kişi gələcək” dediyini eşitdim və hər dəfə də sənin içəri daxil olduğunu gördüm. Sonra qərara gəldim ki, bir müddət yanında qalıb etdiyin əməllərə nəzər salım və mən də onları edim. Amma sənin elə də əməl etdiyini görmədim. Bəs onda Peyğəmbərin ﷺ sənin haqqında belə deməsi nəyə görə idi?” Kişi dedi: “Gördüklərindən başqa bir şey etmirəm?” Abdullah (r.a) çıxıb getmək istədikdə kişi ona dedi: “Gördüklərindən başqa bir şey etmirəm? Yalnız o istisnadır ki, mən heç bir müsəlmanı aldatmıram, Allahın xeyir nəsib etdiyi heç bir kimsəyə həsəd aparmıram!” Abdullah (r.a) dedi:

“Səni o məqama çatdıran budur. Buna isə çatmaq asan iş deyildir”.[1]

- Peyğəmbər ﷺ dedi: “Oğlum İbrahim südəmər çağında vəfat etdi. Onu Cənnətdə iki süd verən qadın gözləyir. Əmizdirmə müddəti bitənədək bu qadınlar ona süd verəcəklər”.[2]

Harisənin (r.a) anası Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Ey Allahın Elçisi! Harisə barədə mənə xəbər ver. O, Bədr döyüşündə ox yarasından ölmüşdür. Əgər o, Cənnətdədirsə, səbir edəcəyəm. Əks təqdirdə onun üçün ağlayacağam”. Peyğəmbər ﷺ dedi: “Ey Harisənin anası! Oğlun cənnətdədir, özü də ən yüksək Firdovs cənnətində!” [3]

- Ənəs (r.a) rəvayət edir ki, qara dərili bir kişi Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Ey Allahın Elçisi! Mənim rəngim qaradır, dərimdən pis iy gəlir, sifətim gözəl deyil, mal-dövlətim də yoxdur. De görüm, əgər mən bu kafirlərlə *Allah yolunda* vuruşub ölsəm, hara düşəcəyəm?” Peyğəmbər ﷺ dedi: “Cənnətə!”

Kişi vuruşub şəhid oldu. Peyğəmbər ﷺ onun cənazəsinin yanına gəlib dedi: “Artıq Allah sənin rəngini ağartdı, dərindən gələn iyi gözəlləşdirdi, sənə çoxlu mal-dövlət verdi və mən hurilərdən olan iri qaragözlü zövcənin sənin yundan olan cübbənin yaxasını açıb yanına girdiyini gördüm”.[4]

---

[1] “Məcməuz-Zəvaid”, 8/78.
[2] əl-Buxari, 1/465; Muslim, 4/1808.
[3] əl-Buxari, 3/1034.
[4] “Səhih Tərğib və Tərhib”, 1381.

- Ənəs (r.a) rəvayət edir ki, əmim Ənəs ibn Nədr (r.a) Bədr döyüşündə iştirak etməmişdi. O dedi: “Ey Allahın Elçisi! Mən müşriklərlə olan ilk döyüşdə iştirak etməmişəm. Allah onlarla döyüşməyi mənə nəsib etsə, Allah mənim nə edəcəyimi görəcək”.

Uhud döyüşündə müsəlmanlar məğlub olarkən o dedi: “Allahım! Mən əshabələrin etdikləri xətalara görə Səndən bağışlanma diləyirəm və müşriklərin etdikləri günahlardan Sənə sığınıram!”

Sonra o, döyüşə atılmaq istədikdə Sə'd ibn Muazla (r.a) rastlaşdı və ona dedi: “Ey Sə'd ibn Muaz! Mən Cənnəti və Nədrin Rəbbini istəyirəm. Mən Uhud dağının yanında Cənnətin iyini duyuram”. Sə'd (r.a) dedi: “Ya Rəsulallah! Mən onun kimi döyüşə bilmədim”.

Döyüşdən sonra biz onu ölənlərin arasında tapdıq. Onun üzərində səksəndən çox qılınc, nizə və ox yarası var idi. Müşriklər onun cəsədini elə hala salmışdılar ki, bacısından başqa heç kim onu tanımadı. Bacısı onu barmaqlarının ucundan tanıdı. Biz də: “Möminlərin içərisində Allaha verdikləri əhdə sadiq qalan kişilər vardır. Onlardan kimisi əhdini yerinə yetirib şəhid olmuş, kimisi də *şəhid olmasını* gözləyir. Onlar *əhdlərini* əsla dəyişdirməyiblər” ayəsinin[1] onun və onun kimilər barəsində nazil olduğunu güman edirdik.[2]

---

[1] əl-Əhzab, 23.
[2] əl-Buxari, 1358.